**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**SAMİRƏ ƏLİAĞA qızı QASIMOVA**

# BULQARLAR VƏ AZƏRBAYCAN

**5503.02 – «Vətən tarixi»**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru **Ə.İ.Muxtarova**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru **T.M.Məmmədov**
Tarix üzrə fəlsəfə doktoru **B.Ş.Şəbiyev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "___"_______" 2018-ci il tarixli iclasında saat "___" keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat "___"___________ 2017-ci il tarixində göndərilmişdir

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə fəlsəfə doktoru **C.Ə.BƏHRAMOV**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Türk xalqlarının çoxəsrlik əlaqələr tarixinin öyrənilməsi dövrün aktual elmi vəzifələrindəndir. Son 26 ildə Vətən tarixi elmində həmin əlaqələr tarixinin tədqiqi istiqamətində xeyli iş görülmüşdür. Lakin bu sahədə kompleks tədqiqata ehtiyacı olan problemlər də qalmaqdadir. Bulqar tayfalarının Azərbaycanla bağlı olan ictimai-siyasi tarixi indiyədək xüsusi araşdırma obyekti olmamışdır. Buna görə də tədqiqata cəlb edilən mövzu Azərbaycan tarix elmində bu sahədə mövcud olan elmi problemləri həll etmək zərurətindən irəli gəlmişdir.

Tədqiqat predmeti kimi seçilmiş mövzu erkən orta əsrlərdə Azərbaycan xalqının digər xalqlarla siyasi və mədəni əlaqələrinin öyrənilməsi baxımından aktualdır.

Azərbaycan xalqının digər türk xalqları ilə də zəngin və çoxəsrlik siyasi və mədəni əlaqələri olmuşdur. Məlumdur ki, qədim dövrlərdən başlayaraq Qafqaz ərazisində bir çox türk dövlətləri mövcud olmuş, bu dövlətlər bölgədə yaşayan digər xalqların inkişaf tarixinə mühüm təsir göstərmişdir.

Əlverişli geosiyasi mövqedə yerləşən və zəngin təbii sərvətə malik olan Azərbaycan zaman-zaman müxtəlif tayfaların, dövlətlərin diqqətini cəlb etmişdir. Məhz buna görə də, erkən orta əsrlərdə Azərbaycanın sərhədlərindən kənarda, habelə ölkənin daxilində baş vermiş, xalqımızın tarixi taleyi ilə sıx bağlı olan miqrasiya proseslərinin araşdırılmasına ehtiyac vardır. Bu baxımdan Azərbaycan xalqının təşəkkülündə müəyyən rol oynamış bulqar tayfalarının yeni ərazilərə köç etməsi məsələsinin araşdırılması, bu tayfaların qədim tarixinin, ölkəmizlə bağlılıq dərəcəsinin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Azərbaycan uzun müddət çar Rusiyasının və SSRİ-nin tərkibində olduğu üçün onun tarixinin bir çox dövrləri kimi Azərbaycan xalqının etnogenezində rol oynamış türk xalqları ilə əlaqələr tarixi də ciddi surətdə təhriflərə məruz qalmışdır.

Ulu öndər Heydər Əliyev türk dünyası xalqlarının həmrəyliyinin, bütün sahələrdə intensiv əməkdaşlığının tarixi əhəmiyyəti haqqında qürurla deyirdi: "Mən bu gün bir həqiqəti qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milliənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ bizmüstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə, xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra,

müstəqil dövlət kimi dünyada tanınandan sonra biz bu tarixi ənənələr əsasında, həminfundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”. [1] Dünya şöhrəti qazanmış böyük tarixi şəxsiyyətin türk dünyasının birləşməsi və möhkəmlənməsi yolunda gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi olduqca mükəmməl elmi-nəzəri mülahizələr reallıqlara əsaslanmaqla, böyük təcrübəvi və tarixi əhəmiyyətə malikdir. Onlar türk dünyasının birləşməsində, regionun nüfuzlu bir ictimai-siyasi qüvvəsinə çevrilməsində əhəmiyyətli rol oynadı.[2]

Problemin aktuallığını şərtləndirən amillərdən biri də bulqarların sosial-iqtisadi, siyasi və mədəni tarixi ilə bağlıdır. Yazılı mənbələr və arxeoloji materiallar təsdiq edir ki, erkən orta əsrlərdə bulqarlar Qafqaz bölgəsində çox fəal olmuş, yerli tayfalara və xalqlara müəyyən təsir göstərmişlər. Bulqarların fəaliyyəti Qafqazla məhdudlaşmırdı. Onlar Dunay, Volqa çaylarının sahilboyu ərazilərində də yayılmış və Böyük Bulqar dövlətini yaratmışdılar. Mənbələrdən məlum olur ki, bu dövlət həmin dövrdə kifayət qədər güclü dövlət idi. Beynəlxalq əlaqələr sistemində Böyük Bulqar dövlətinin xüsusi mövqeyi və rolu olmuşdur. Ərəb Xilafəti ilə imzalanmış diplomatik sənədlərdə, hər iki tərəfin səfirlərinin gündəliklərində bunu təsdiqləyən məlumatlar vardır. Bütün bu məsələlərin öyrənilməsi zərurəti də mövzunun aktuallığını xeyli artırır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi əsasən eramızın IV-VIII əsrlərini əhatə edir. Dissertasiyanın xronoloji çərçivəsinin müəyyən edilməsində bir sıra tarixi hadisələr və proseslər məcmusu nəzərə alınmışdır. Öncə bulqarların türk tayfaları ittifaqının təşəkkülündə mövcud olduğu dövr araşdırılır. Sonra isə bulqarların türk tayfa ittifaqından ayrılması, bulqarların parçalanması prosesi, onların Qafqaza yürüşü tədqiq olunur. Tədqiqat işində yeri gəldikcə ümumi məzmundan çıxış edərək XIII əsrin sonlarınadək bulqarlarla bağlı olan müəyyən ictimai-siyasi münasibətlərə və mədəni əlaqələrə də toxunulmuşdur.

**Mövzunun öyrənilmə səviyyəsi.** Öncə qeyd edək ki, Azərbaycan tarix elmində Bulqar-Azərbaycan əlaqələri, ümumiyyətlə “bulqar problemi” xüsusi araşdırma obyekti olmamışdır. Bununla yanaşı aşagıdakı görkəmli tarixçilərin əsərlərində bulqar tayfalarının Azərbaycan xalqının etnogenezində iştirakı ilə bağlı məsələlərə toxunulmuşdur. Onlardan

---

[1]Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, ikinci kitab may 1994-dekabr, 1994, s. 253

[2] Vəliyev D.Ə. Heydər Əliyev və türk dünyası. Xalq qəzeti: 2104, №99, s.3

S.Əliyarlının “Azərbaycan xalqının etnogenezinə dair” əsərində, [1] Ə.Ələkbərovun “Azərbaycan türkləri” əsərində [2], Q.Qeybullayevin “Azərbaycan toponimləri” [3] və “Azərbaycanlıların etnogenezinə dair ” əsərlərində [4] məlumatlar var.

Bununla yanaşı Y.Cəfərovun “Hunlar və Azərbaycan” adlı əsərində[5] bulqarların Azərbaycana yürüşü və Azərbaycanda məskunlaşması ilə bağlı geniş məlumatlar öz əksini tapıbdır.

Bununla yanaşı ümumiləşdirilmiş əsərlərdə, o cümlədən yeddi cildlik “Azərbaycan tarixi”nin ikinci cildində [6] də bulqar tayfaları ilə bağlı mühüm məlumatlar öz əksini tapmışdır.

Türk xalqları erkən orta əsrlər tarixinin görkəmli tədqiqatçılarından biri M.İ.Artamonov olmuşdur. Onun “Xəzərlərin tarixi” əsərində III-IV əsrlərdə hunların qərbə doğru hərəkəti, Hun imperiyasının yaranması, 453-cü ildə Attila öldükdən sonra Avropa Hun imperiyasının süqutu, Xəzər və Bulqar dövlətlərinin yaranması haqqında ətraflı şəkildə bəhs olunur.[7]

Türk xalqlarının erkən orta əsrlər tarixinin araşdırılması sahəsində V.V.Bartoldun xidməti böyük olmuşdur.[8]

Bundan əlavə türk xalqlarının erkən orta əsrlər tarixini L.N.Qumilyov da araşdırmışdır. Onun “Qədim türklər” adlı əsərində Qərbi və Şərqi Türk xaqanlıqları haqqında geniş bəhs edilir.[9]

N.Y.Merpert bulqar tayfalarının tarixi ilə bağlı əsərlərin müəllifidir. Onun 1957-ci ildə Kazanda nəşr edilmiş “Ən qədim bulqar tayfaları haqqında məsələyə dair” monoqrafiyası bu sahədə yazılmış ən dəyərli əsərlərdən biri hesab olunur. Bu əsərdə bulqar tayfalarının mənşəyindən, onların qədim tarixindən və yayıldığı ərazilərdən bəhs olunur. N.Y.Merpert

---

[1] Алияров С.С. Об этногенезе азербайджанского народа. Баку:Элм. 1984, с. 4-39.

[2] Алекперов А. Тюрки Азербайджана (древность и раннее средневековье). Баку: Изд. «Şərq-Qərb», 2011, 560 с.

[3] Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку: Элм, 1986, 190 с.

[4] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т-1, Баку: Элм, 1991, 552 с.

[5] Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку: Элм, 1993, с. 21-33.

[6] Azərbaycan tarixi,7 cilddə, II cild. Bakı: Elm, 2007, s. 24-25

[7] Артамонов М.И. История Хазар. Ленинград: 1962, 523 с.

[8] Бартольд В.В. О письменности у хазар Культура и письменность Востока. IV. Баку: Наука, 1929, 930 с.

[9] Гумилев Л.Н. Древние тюрки. Москва: Наука, 1967, 504 с.

bir sıra hallarda bulqarların Qafqazla əlaqələri məsələsinə də toxunmuşdur.[1]

Y.A.Fyodorov və Q.S.Fyodorov bulqarların Qafqazla, xüsusilə Şimali Qafqazla bağlı olan tarixinə diqqət yetirmişlər. "Erkən türklər Şimali Qafqazda" adlanan əsərlərində bulqarların şimali Qafqaz əhalisi ilə tarixi- etnoqrafik əlaqələri təsvir edilmişdir. Həmin əsər əsasən arxeoloji materiallar əsasında yazılmışdır.[2]

Volqaboyu bulqarların tarixinin öyrənilməsində A.P.Smirnovun "Volqa bulqarları" əsərinin xüsusi əhəmiyyəti vardır. Əsərdə bulqarların qədim tarixi əks olunur, monqol işğalına qədərki mərhələ və Qızıl Orda dövrü təsvir edilir. Bu əsərdə bulqarların ictimai-siyasi həyatı, onların Bulqar, Bilər, Suvar, Oşel, Jukotin, Tubulqatai, Kermençuk, Kazan, Kasun şəhərləri haqqında məlumat verilir.[3]

Fikrimizcə, Bulqar dövləti haqqında, ən mühüm əsərlərdən biri B.O.Qrekovun və N.F.Kalininin "Monqol işğalına qədərki Bulqar dövləti" adlı məqaləsidir. Bu məqalədə Bulqar dövlətinin başqa dövlətlərlə əlaqələri, bulqarların erkən tarixi və mədəni həyatı araşdırılmışdır.[4]

İ.N.Berezinin 1853-cü ildə yazdığı "Volqada Bulqar" əsəri XIII-XIV əsrlər bulqarların tarixinin öyrənilməsi üçün əhəmiyyətdir.[5]

V.V.Qriqoryevin "Rusiya və Asiya" (1876) əsərində bir çox qədim şərq mənbələrinə istinad edilmişdir. Müəllif bulqarların Volqa boyunda avroxtonluğu fikrini irəli sürmüş, əhalisinin çox tayfalı tərkibinə malik olduğunu göstərmişdir. Bulqariyada slavyanların əhalinin əsas hissəsini təşkil etdiyini qəbul edən V.V.Qriqoryev belə bir yanlış nəticəyə gəlmişdi ki, "Volqa bulqarları və slavyanlar arasında bərabərlik hökm sürürdü".[6]

N.İ.Aşmarin 1902-ci ildə yazdığı "Bulqariya və çuvaşlar" əsərində əsasən dil materiallarına istinad edərək bulqarların mənşəyi haqqında məsələ üzərində dayanmışdı. Onun təqdim etdiyi əsərdə qədim Bulqariyada çox sayda tayfaların olduğu göstərilir. N.J.Aşmarin həmin tayfaların

---

[1] Мерперт Н.Я. К вопросу о древнейших болгарских племенах. Казань: 1957, 37 с.

[2] Федоров Я.А., Федоров Г.С. Ранние тюрки на Северном Кавказе. Москва: МГУ, 1978, 296 с.

[3] Смирнов А.П. Волжские булгары. Москва: 1951, 275 с.

[4] Греков Б.Д. Калинин Н.Ф. Булгарское государство в домонгольское завоевание. Материалы по истории Татарии.Т. 1. Казанъ: татгосиздат, 1948, с.97-185. 487 с.

[5] Березин И.Н. Булгар на Волге. Казань:Типография университета, 1853 91 с

[6] Григорьев В.В. Россия и Азия. Изд-во Санкт Петербург: 1960, 575 с.

arasında "çuvaşların üstünlük təşkil etmələri, çuvaşların məhz bulqarların törəmələri olması" haqqında nəticələri son dərəcədə birtərəflidir.[1]

Bulqarların tarixinə dair arxeoloji materialların toplanılmasında və araşdırılmasında V.F.Qeninq və A.X.Xalikovun əsərləri də əhəmiyyətlidir.

X əsrdə Volqa və Kamanın sahillərində Volqa Bulqar dövləti təşəkkül tapdı. Bu dövlət Şərqi Avropanın bir çox türk xalqlarının kazan tatarlarının, çuvaşların, mişarların və başqırdlərin inkişafına böyük təsir göstərmişdir. Bu dövlətin təşəkkülündə həlledici rolu VII əsrin sonunda Volqa və Kama çayının sahillərində qərarlaşmış bulqar tayfaları oynamışlar. Uzun müddət ərzində Azovyanı ərazilərdə cəmləşmiş bulqar tayfalarının Orta Volqa boyuna qayıdışını təsdiqləyən birbaşa yazılı məlumatların, arxeoloji materialların olmaması bu bölgədə bulqar tayfalarının erkən tarixi ilə bağlı olan bir çox problemlərin mübahisəli qalmasına səbəb olmuşdu. Ona görə də tarixçilər bu məsələləri qaldırmağa meyl etmirdilər.

Aparılan tədqiqatlar nəticəsində 1950-ci ildə Böyük-Tərxan, 1952-ci ildə isə Kaybel qəbirləri aşkar edildi. Həmin qəbirlərdən ilk dəfə olaraq bulqarların Volqaya gəldiyi dövr haqqında arxeoloji materiallar əldə edildi. 1957-ci və 1960-cı illərdə Böyük Tərxan qəbristanlığında geniş miqyaslı qazıntılar aparıldı, 1961-ci ildə isə Tankeyev qəbristanlığında arxeoloji qazıntılar aparılmağa başlandı. Bu qazıntıların nəticələri bulqarların və başqa türk xalqlarının Volqa boyu ərazilərdə məskunlaşması və təşəkkülü probleminin öyrənilməsi üşün əsaslar qoydu.[2]

1939-1941-ci illərdə Böyük Tərxan kəndindən Syündüköv kəndinə yol çəkilərkən yolun hər iki tərəfində (40-50 metr uzunluqda yol ayrıclarında) ayrı-ayrı insan sümükləri tapılmışdı. Sonralar belə sümüklər şosse yolundan şimalda yerləşən rayon xəstəxanasının ərazisində də aşkar edildi. Beləliklə, 1945-ci ildə yaşayış evinin və laboratoriyanın özülü qazılarkən üç qəbrin qalıqları aşkar olundu. 1947-48-ci illərdə başqa bir tikinti zamanı bürünc bilərzik, asmalıq (sırğa) və s. bəzək əşyaları olan daha üç qəbir üzə çıxarıldı. Xəstəxana həyətinin qərb hissəsində də bir neçə qəbir qazılmışdı. 1950-ci ildə isə yaşayış evi və xəstəxana həyətinin cənub hasarı arasında təsərrüfat obyekti tikilərkən dəmir bıçaqlar, mis bəzək əşyaları və qızıl bilərziyi olan zəngin qəbir aşkar edildi.[3]

---

[1] Ашмарин Н.И.Болгары и чуваши. Казань: типо-лит. Имп.ун-та, 1902,144 с.
[2] Геннинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге. Москва: 1964, 176 с.
[3] Геннинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге. Москва: 1964, 176 с.

1950-ci ilin avqust ayında A.X.Xalıkovun rəhbərliyi ilə böyük ekspedisiya Böyük Tərxana yollandı. Böyük Tərxan qəbristanlığı dəfn adəti 358-dən artıq qəbirdən əldə edilmiş materiallara əsasən öyrənildi.

Əsasən düzbucaq formasına yaxın olan qəbir-dərələr kifayət qədər sabit istiqamətlənmişdi, şərq-qərb istiqamətində uzunsov tərəflərin müəyyən çıxıntıları vardı: Şərq, şimal- şərq, qərb, cənub-qərb, şərq, cənub-şərq, qərb, şimal-qərb.

1953-54-cü illərdə N.Y.Merpert tərəfindən tədqiq olunmuş Kaybel qəbristanlığı Volqanın sol sahilində, Ulyanovsk vilayətinin Kaybel kəndinin cənub tərəfində yerləşirdi. N.Y.Merpert burada 20 qəbir aşkar etmişdir. Tədqiqatçı müəyyən etmişdir ki, dəfn olunanlar əsasən dərin düzbucaq şəkilli dərələrdə yerləşdirilir, bəzən bu dərələr arxalıqlı və ağac örtüklü olurdu. Ağac qalıqları daha çox sümüklərin yanında tapılmışdır ki, bu da tabutun olduğunu və yaxud dərənin divarlarının ağacla örtüldüyünü düşünməyə əsas verir. Dəfələrlə kömür izlərinə də rast gəlinmişdir. Bəzi qəbirlərdə at kəllələrinə təsadüf edilmişdir. N.Y.Merpertin fikrincə, Kaybel qəbristanlığının dəfn ləvazimatı Don və Dunay (burada Bulqar–Saltov nəzərdə tutulur-red.) dəfn inventarına çox yaxındır.[1]

**Tədqiqatın mənbə bazası.** Bulqar dilində yazılı mənbələr bizim dövrə qədər gəlib çatmamışdır. Başqa qaynaqlarda adı çəkilən, XII əsrdə bulqar alimi Yaqub ibn Noman tərəfindən yazılmış "Bulqariyanın tarixi" əsəri müasir araşdırmaçılar üçün məchuldur. Qədim erkən və orta əsr müəlliflərin qeyd etdikləri başqa sənəd və əsərlər də saxlanılmamışdır. Lakin Orta Volqa boyu xalqlarının şərq və rus knyazlıqları ilə genişlənən əlaqələri qonşuların Bulqar dğvlətinə marağını artırmışdır. Biz bu dövlət haqqında məlumatları ərəbdilli, farsdilli alimlərin, səyyahların əsərlərindən və rus salnamələrindən əxz etmişik. Bulqarlarla bağlı olan Bizans tarixçilərinin əsərlərində də məlumatlar vardır.

Volqa bulqarları və onların qonşuları haqqında ayrı-ayrı qeydlərə IX-X əsrlərin müəlliflərində rast gəlirik. Həmin müəlliflər sırasında Əbdulabbas əl-Bəlazuri (ölkələrin fəthi haqqında kitabı, IX əsr) [2], Əbülqasım ibn Xordadbeh (təriqətlər və şahlar haqqında əsəri, IX əsr) [3], Əl-Ceyhaninin (Cəvahiratlar haqqında kitabı, X əsrin birinci rübü), Əbu İshaq

---

[1] Мерперт Н.Я. К вопросу о древнейших болгарских племенах. Казань: 1957, 37 с.
[2] Баладзори. Книга завоевания стран. Пер.П.К.Жузе. Баку: 1927, 427 с.
[3] Ибн Хордадбех. Книга путей и стран. (Перевод с арабского на русский язык комментарии, исследование, указатель имен и карты Н.М.Велихановый). Баку: Элм 1986, 427 с.

əl-İstəxri (İqlimlər haqqında əsəri, X əsrin ortaları) [1], Əbülqasım ibn Havqəli (təriqətlər və dövlətlər haqqında kitabı, X əsr), İosif Xəzərlini (İspaniya yəhudisi Xasdaya məktubu, X əsr) [2] göstərmək olar.

Ərəb səyyahı İbn Fədlanın kitabı məzmununa görə son dərəcədə müstəsna və qiymətlidir. Bu kitabda onun 921-922-ci illərdə Bağdaddan Volqa boyuna etdiyi səyahəti təsvir edilir. İbn Fədlan Bulqariya əhalisinin ictimai həyatının, məişətinin bir çox tərəflərinə daha aydın və canlı şəkildə toxunur.[3]

Bulqar tayfalarının Azərbaycana yürüşləri və onların Azərbaycanda məskunlaşması Moisey Kalankatuklunun "Alban tarixi" əsərində öz əksini tapmışdır. [4]

Ərəbdilli fars müəllifi İbn Rustanın X əsrin birinci yarısına aid olan, ensiklopedik səciyyə daşıyan ensiklopediya olan "Cəvahirat" kitabında da dəyərli tarixi-coğrafi məlumatlar verilir. [5]

Ərəb səyyahı Əbu İshaq əl-İstəxrinin X əsrdə tərtib etdiyi xəritə bizə məlum olan ən qədim xəritədir. Həmin xəritə son dərəcədə sxematikdir, lakin orada Xəzər dənizi, Volqa və Kama çayları, Rusların və slavyanların yayıldığı ərazilər göstərilmişdir. [6]

Ərəbdilli Əl-Bəlxinin "Torpaq növləri haqqında kitab" coğrafi risaləsində məlumatlar vardır. [7] Əl-Məsudinin "Dövrlərin aynası" ensiklopediyası da həmin dövrə aiddir. Əl-Məsudi Bulqar torpağının ətrafından axan və İtilə tökülən Burtes çayından bəhs etmişdir. O, göstərmişdir ki, burtaslar bu çayın sahilində yaşayırlar və adlarını da bu çaydan almışlar. [8]

---

[1] Материалы по истории Туркмении. Ашхабад: 1939

[2] Коковцев П.К. Еврейско-хазарская переписка в X в. Ленинград: 1932, 134 с.

[3] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг. Харьков: 1956, 345 с.

[4] Kalankatuklu M. Albaniya tarixi. Tərcümə edəni, müqəddimə, qeyd və şərhlərin müəllifi Z.Bünyadov. Avrasiya Press, Bakı: 2006, s. 293.

[5] Дьяконов И.М. Очерк истории Древнего Ирана. Москва: 1961, 444 с.

[6] Гаркави А.Я. Сказания мусульманских писателей о славянах и русских. СПб.: 1870, 308 с.

[7] Yenə orada

[8] Греков Б.Д. Калинин Н.Ф. Булгарское государство в домонгольское завоевание. Материалы по истории Татарии. Т. 1. Казанъ: татгосиздат, 1948, с.97-185. 487 с.

Ərəb müəllifi Əl-Müqəddəsinin (Məqdisinin) coğrafi məzmunlu kitabı X əsrin ikinci yarısında yazılmışdır və burada bulqarlarla bağlı olan məlumatlara təsadüf olunur. [1]

XIII əsrin müəllifləri Yaqut əl-Həməvi, Bizans tarixçisi Nikifor Qreqor da Bulqar tarixi haqqında müəyyən məlumatlar vermişlər. [2] Bu məlumatların bəzilərinə başqa müəlliflərin əsərlərində rast gəlinmir. Onların bəzi məlumatları isə müqayisə üçün əhəmiyyət kəsb edir.

Bulqar arxeologiyası üzrə arxeoloji işlər XIX əsrin ortalarından aparılmağa başlanmışdır. Bu sahədə Kazan alimi və kolleksioneri A.F.Lixaçovun XIX əsrin 60-80-ci illərində apardığı araşdırmalar böyük əhəmiyyətə malikdir.

1878-ci ildə Kazan universitetində arxeologiya, tarix və etnoqrafiya cəmiyyəti açılmışdı. Bu cəmiyyət 50 illik fəaliyyəti ərzində arxeologiya sahəsində çox işlər görmüşdür. Bulqar tarixinin öyrənilməsi sahəsində P.A.Ponomaryovun, N.F.Vısotskinin, A.A.Ştukenberqin işlərini xüsusilə qeyd etmək lazımdır. V.F.Smolin, A.S.Başkirovun işləri Sovet dövrünə aiddir. XIX əsrin 30-cu illərindən Bulqar tarixi üzrə sistemli arxeoloji işlər aparılmış, bir çox mübahisəli elmi məsələləri işıqlandırmağa imkan verən yeni faktlar meydana çıxmışır. A.P.Smirnovun Suvar 1933-1937-ci illərdə və Bulqar şəhərciklərində 1938-1948-ci illərdə apardığı arxeoloji araşdırmalar mühüm elmi nəticələrin əldə olunması üçün əlverişli şərait yaratdı. Volqa Bulqariyasında ilk geniş miqyaslı arxeoloji tədqiqatların aparılması A.P.Smirnovun və N.F.Kalininanın adı ilə bağlıdır.[3]

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd bulqarların Azərbaycanla (tarixi Albaniya ilə) əlaqələrini tədqiq etməkdən ibarətdir. Dissertant bu məqsədə nail olmaq üçün konkret olaraq aşağıdakı məsələlərin araşdırılması vəzifəsini qarşısına qoymuşdur:

-bulqarların türk tayfalar içərisində yerinin müəyyən olunması;
-onların mənşəyinin və qədim tarixinin öyrənilməsi;
-bulqar tayfalarının tayfa ittifaqı kimi təşəkkülü tarixinin araşdırılması;
-bulqarların yayıldığı ərazilərin müəyyən olunması;
-bulqar tayfalarının Azərbaycana yürüşlərini tədqiq etmək;

---

[1] Геннинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге. Москва: 1964, 176 с.
[2]Пигулевская Н.В. Сирийские источники по истории народов СССР. М.-Л., 1941
[3] Губайдуллин А.М. Фортификация городищ Волжский Булгарии. Казань: Инс.истории АН РТ, 2002, 232 с.

-bulqar tayfalarının Azərbaycan xalqının formalaşmasında iştirakına aydınlıq gətirmək
-bulqarların sosial-iqtisadi, mədəni həyatının öyrənilməsi;
-onların başqa xalqlarla, tayfalarla əlaqələr tarixinin izlənməsi.

**Tədqiqatın metodoloji əsası.** Mövzunun araşdırılmasında tarixilik prinsipindən, faktoloji şərhdən, müqayisəli təhlildən, problemə kompleks yanaşma üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyini aşağıdakı konkret cəhətlər şərtləndirir:
-Azərbaycan tarix elmində ilk dəfə olaraq bulqarlarla Azərbaycan xalqı arasında əlaqələr zəngin mənbə məlumatları və elmi ədəbiyyat əsasında xronoloji ardıcıllıqla tədqiq olunmuş, bu əlaqələrin konkret faktları kompleks şəkildə təhlil olunmuş, sistemləşdirilimiş, ümumiləşdirilmiş və təhlilin nəticələri dəyərləndirilmişdir
-tədqiq olunan dövrün siyasi əlaqələrini şərtləndirmiş amillər aşkara çıxarılmış, onların siyasi əsasları tutarlı fakt və dəlillərlə göstərilmişdir.
-bulqarların mədəniyyət sahəsində başqa ölkələrlə, xalqlarla əməkdaşlığı əsaslı dəlillərlə təhlil olunmuş, nəzərdən keçirilmişdir;
-müxtəlif yazılı mənbələrə və arxeoloji materiallara istinadən bulqarların qədim tarixinin öyrənilməsi sahəsində müəyyən nəticələr əldə olunmuşdur;
-onların dövlət qurumlarının yaranması, təşəkkül mərhələləri konkret faktlar əsasında araşdırılmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından və nəticələrindən istifadə oluna bilər:
-dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında;
-Azərbaycan xalqının qədim dövrünə və orta əsrlər tarixinə dair kitabların tərtib olunmasında;
-Qafqaz xalqlarının tarixi ilə bağlı olan əsərlərin yazılmasında;
-Azərbaycan, Qafqaz, türk xalqlarının tarixinə dair mühazirələrin tərtib olunmasında

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA-nın Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutu Tarix şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işi həmin şöbədə iki dəfə müzakirə edilərək Dissertasiya Şurasında müdafiəyə buraxılmışdır. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr etdirdiyi elmi məqalələrində, tezislərində, konfrans materiallarında öz əksini tapmışdır. Mövzu ilə bağlı olaraq dissertantın Azərbaycan Respublikasında və xaricdə nəşr olunan elmi jurnallarda məqalələri və konfrans materialları çap edilmişdir. Dissertantın nəşr

olunmuş məqalələri və konfrans materialları tədqiq olunan tədqiqat işinin bütün fəsillərini və ümumi məzmununu tam əhatə edir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, üç fəsildən, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyatların siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə bazasının icmalı verilmiş, tədqiqatın elmi yenilikləri və nəzəri və praktik əhəmiyyəti hərtərəfli təhlil olunmuşdur.

**I fəsil "Bulqar tayfalarının qədim tarixi" adlanır.** Bu fəsil "Bulqarların mənşəyi və tərkibi" və "Böyük Bulqar dövləti" adlı iki yarımfəslə bölünərək tədqiq edilir.

**"Bulqarların mənşəyi və tərkibi"** adlı birinci yarımfəsil adından da göründüyü kimi bulqar tayfalarının tərkibi və mənşəyi haqqında məsələləri əhatə edir.

Bulqar tayfalarının mənşəyi problemi tarix elmində yeni deyildir. Buna görə də məsələ ilə bağlı olan elmi ədəbiyyatların və yazılı qaynaqların qısa xülasəsi toplanılmışdır ki, onlar yalnız problemin ayrı-ayrı məsələləri üzrə tədqiqatları deyil, həm də bir sıra müxtəlif mənbələrin və əsas nəzəriyyələrin xülasəsini əhatə edir.

Bulqar tayfalarının mənşəyi tarixi və təkamül məsələlərinin öyrənilməsi uzun müddət ərzində dilçilik elminin materiallaına, Bizans, ərəb qaynaqlarına, erkən orta əsrlərin bir sıra başqa müəlliflərinin mənbələrində verilən məlumatlara əsaslanırdı. Həmin mənbələrdən istifadə olunması bu problemlə bağlı olan bir çox ziddiyyətli nəzəriyyələrin meydana gəlməsinə səbəb olmuşdur.

Təxminən 100 il öncə "bulqar probleminin" həlli üzrə mənbələr sırasına Orta Volqa boyu ərazisindəki qədim qəbristanlıqlarda təsadüf edilmiş qəbirüstü yazıları da daxil etmək cəhdi olmuşdur. Lakin həmin qəbirüstü yazılar XIII əsrin sonundan qədim deyildir, yəni daha erkən dövrlə bağlı olan problemlərin həllində müəyyən çətinliklər yaradır, əldə olunan bir sıra nəticələri şübhə altına alır.[1]

Bulqarların mənşəyinin öyrənilməsi ilə bağlı olaraq uzun müddət arxeoloji məlumatlar tədqiqata cəlb edilməmişdi. Halbuki məhz bu

---

[1] Генинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге, М., 1964, с.101

materiallar belə bir məsələdə həlledici rol oynaya bilərdi. A.P.Smirnov ilk dəfə olaraq arxeoloji materiallara əsasən bulqarların mənşəyi konsepsiyası irəli sürmüşdür. A.P.Smirnovun fikrincə bulqarlar eramızın birinci minilliyinin ortalarında Azovyanı ərazilərdə türkləşməyə məruz qalmış sarmat-alan mənşəli avtoxton (yerli) tayfalardır. Böyük Bulqariya dağıldıqdan sonra VII-VIII əsrlərdə bulqar ordusunun bir hissəsi Volqaboyu və Kamaboyu ərazilərə köçdü, burada qədim dövrlərdən məskunlaşmış yerli fin-uqor əhalisi ilə qaynayıb qarışdı. Bu əhali bulqar dilini qəbul etdi və sonralar onların bir qismi Volqa Bulqariyasının, bir hissəsi isə çuvaş xalqının tərkibinə daxil oldu.[1]

Yalnız XX əsrin 50-ci illərinin əvvəllərində qədim bulqar abidələrinin materiallarının təhlilinə keçməyə imkan verən arxeoloji abidələr aşkar edildi, müxtəlif fərziyyələri və ehtimalları irəli sürənlərin sayı xeyli azaldı. IV-VI əsrlər yazılı mənbələrində bu çöllərdə baş vermiş hadisələr təsvir edərkən yalnız hakim tayfa adları çəkilir. Bu və ya digər tayfa birliyinin başında durmayan, ikinci dərəcəli tayfaların adına nadir hallarda təsadüf edilir.[2]

I fəslin **"Böyük Bulqar dövləti"** adlanan ikinci yarımfəslində Bulqar tayfalarının ittifaqı, Böyük Bulqar dövlətinin yaranması və s. kimi məsələlər öz əksini tapmışdır.

Qərbi Hun imperiyası dağıldıqdan sonra bulqarlar (türklər) VII əsrin ortalarına doğru Şimali Qafqazda "Böyük Bulqar xaqanlığı" adlı dövlət yaratdılar. Böyük Bulqariyanın yaranması şərqdə "Moxadu-Xeu" adı ilə tanınan türküt hakimlərindən biri olmuş Orqananın bacısı oğlu Kubratın adı ilə bağlıdır. Güman etmək olar ki, Orqana xaqanlığın bulqar və dulu tayfalarından təşkil olunmuş ən qərb vilayətlərindəki tayfalara başçılıq etmişdir. 631-ci ildə Cunqariyada daxili müharibə baş verdi. Moxodu-Xeu öldükdən və xaqanlıq süqut etdikdən sonra Dulo sülaləsinin əsasını qoyan Kubrat siyasi hakimiyyətə sahib çıxdı. [3]

Lakin Kubrad vəfat etdikdən sonra 665-ci ildə xəzərlərin hücumlarına tab gətirməyən xaqanlıq parçalandı. Bulqarların bir hissəsi İtil (Volqa) çayı boyunda məskunlaşdı, digər hissəsi isə Asparux xanın başçlığı altında Dunay çayının ətrafındakı ərazilərə köçdü.

Kubrad adının etimologiyası ilə bağlı olaraq aşağıda göstərilən bir neçə mülahizə vardır: "qurt/canavar" ilkin mənadan "quwurt"; "qobrat,

---

[1] Смирнов А.П. Волжские булгары, М., 1951, с.28
[2] Генинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге, М., 1964, с.104
[3] Попов А.Н. Обзор хронофафов русской редакции. М., 1866. Вып. I., 73

qubrat"- toplamaq, birləşdirmək. "Bulqar xanlarının siyahısında" bu ad "Qurd-Qourt" kimi verilib. [1]

I fəslin **"Volqa və Dunay bulqarları"** adlı üçüncü yarımfəslində Volqaboyu və Dunayboyu ərazilərdə yaranmış bulqar dövlətləri haqqında bəhs edilir.

X əsrdə Orta Volqa boyu ərazilərində tarixi mənbələrdə "Volqa Bulqariyası" adı ilə xatırlanan iri dövlət meydana gəldi. Artıq bu dövlətin adı ondan xəbər verir ki, bulqar tayfaları onun təşəkkülündə fəal iştirak etmişlər. Lakin Tankeyev qəbristanlığın da aşkar olunmuş materiallardan məlum olur ki, Volqa Bulqariyasının əhalisinin əsas kütləsini bulqarlar deyil, başqa türk tayfaları və yerli fin-uqor xalqları (marilər, udmurtlar, komi-permyakların əcdadlarından) təşkil etmişlər.

Böyük Tərxan və ona yaxın olan qəbristanlıqların materiallarının Volqa Bulqariyasının X-XIII əsrlərə aid olan abidələri ilə müqayisəsi monqollara qədərki dövrdə Volqa Bulqariyası mədəniyyətinin təşəkkülündə "gəlmə bulqar tayfalarının" rolunun dərəcəsini göstərə bilər. Monqollara qədərki dövrdə Böyük Tərxan və Kaybel qəbristanlıqları Volqa Bulqariyası ərazisinin təqribən mərkəzi hissəsində yerləşir. Nə birinci, nə də ikinci qəbristanlığın yanında onlara sinxron olan mərkəzlər yoxdur.

Böyük Tərxan qəbristanlığının osteoloji sümük materialları içərisində at və qoyun sümükləri üstünlük təşkil edir. Bu köçəri maldar tayfalar üçün səciyyəvi hal idi. Böyük Tərxanın 358 qəbrində bircə baltada tapılmamışdır. Halbuki balta köçərilər üçün səciyyəvi alətdir. Burada atın parçalara ayrılması halları da müşahidə olunmamışdır. Həmin arxeoloji materiallar bulqarlar haqqında yazılı mənbə məlumatları ilə də təsdiqlənir. Məsələn, İordan (VI əsr) Qara dəniz sahilində yaşamış hun-bulqar tayfalarını bu cür təsvir edirdi: Yayda onlar çöl boyunca səpələnir və düşərgələrini mal-qaraları üçün qida olan yerlərdə salırdılar.[2]

Volqa Bulqariyasının yarandığı dövrə aid olan IX-X əsr yazılı mənbələri bu dövrdə orta Volqanın əhalisinin mürəkkəb etnik tərkibli olduğunu qeyd edirlər. Məsələn, ən erkən ərəb coğrafiyaşünaslarından biri İbn Xordadbeh IX əsrin sonunda Avrasiyanın türk tayfalarını sadalayır və peçeneqləri Ural və Volqa arasında yerləşdirir.[3]

---

[1] Баскаков Н.А. Тюркская лексика в «Слове о полку Игорове». Москва Наука, 1985, 207 с.

[2] Иордан, О происхождении и делениях гетов. Пер. Е.Ч. Сарижинский, М., 1960, 23

[3] Материалы по истории Туркмении, Ашхабад, 1939, с.144-145

X əsrin başlanğıcında Volqa Bulqariyası haqqında daha ətraflı məlumatları İbn Ruste və İbn Fədlan vermişlər. İbn Ruste bulqarların ərazisi haqqında məlumatla yanaşı qeyd etmişdir ki, bulqarlar üç qismə bölünür: bir qismi "Bersula", o biri hissəsi "Eseqel", üçüncü qismi isə "Bulqar" adlanır. [1] İbn Fədlan İbn Rustanin ardınca Volqaboyunda gördüyü əhali birliyinin çoxtayfalı olduğunu bildirmişdir: Burada adətən "sakalibelərin başçısı" adlanan böyük hökmdar Axmuşla yanaşı eskel tayfasının iki hökmdarı "Viriq" adlı başçısı olan sivan (suvaz) xalqı "brancar" adı altında "beş min ev" qeyd edilmişdir.[2] Maraqlıdır ki, onların hamısı "bulqar" deyil, "sakalibe" ümumi ad altında birləşir. Bu istilah əhalini bir tayfa ittifaqının etnik qrupunu kimi deyil, daha geniş anlamda ifadə edirdi.

X əsrin birinci yarısında təşəkkül tapmış dövlətin tərkibinə başqırdlar, peçeneqlər (qıpçaqlar) və oğuzlar daxil idilər. İbn Fədlan onlarla Volqa Bulqariyasında görüşünü təsvir etmişdir. Bununla bağlı olaraq, Almuşu "öz kürəkəni" adlandıran quz ordusunun sərkərdəsi Etreki qeyd etməsi maraqlıdır. Görünür, Almuş Etrekin qızı və yaxud bacısı ilə ailə qurmuşdu.

Vaxtilə B.N.Zaxoder Volqaboyu ərazilər haqqında ərəb və fars mənbələrindəki bütün məlumatları "Şərqi Avropa haqqında məlumatların Xəzər məcmuəsində" ümumiləşdirməyə cəhd etmişdi. Bu əsərin birinci hissəsində Volqa Bulqariyasının ərazisi, əhalisi və sərhəd bölgələri haqqında məlumatların xülasəsi təqdim edilmişdir. Bu hissədə belə bir maraqlı qeyd vardır ki, bulqarların hökmdarı Almuş əslində kiçik bir qrupun canişinidir və onun ətrafında beş yüz soydaşı vardır".[3] Bulqarlardan şərqdə və cənubda dağlar, qərbdə İtil (Volqa) çayı, şimalda "peçeneqlərin vilayəti" qeyd edilmişdir. Bulqarların bilavasitə qonşuları kimi peçeneqlər haqqında qeydlər "Burtaslar" bölməsində nəzərə çatdırılır: "Burtaslar daim peçeneqlərlə müharibə aparırlar... Burtasların vilayətindən şərqdə İtil çayı vardır, cənubda xəzərlər, qərbdə - v.n.nd.r, şimalda türk peçeneqləri yaşayırlar [4]. Göründüyü kimi, bütün mənbələrdə burtasların cənubda xəzərlərlə və şimalda isə bulqarlarla qonşu olduqları göstərilir. Onda belə bir nəticəyə gəlmək olar ki, peçeneqlər (qıpçaqlar) burada bulqarlarla

---

[1] Материалы по истории Туркмении, Ашхабад, 1939, с.144-145
[2] Материалы по истории Туркмении, Ашхабад, 1939, с.144-145
[3] Заходер Б.Н. Каспийский свод сведений о Восточной Европе, Т. 2, Издательство Наука, М., 1967, с.27
[4] Заходер Б.Н. Каспийский свод сведений о Восточной Европе, Т. 2, Издательство Наука, М., 1967, с.27

yanaşı yaşamışlar. Bu fikir daha konkret şəkildə madyar-türklər haqqında bölmədə ifadə edilmişdir: "Madyarların sərhədlərinin başlanğıcı – peçeneqlərin (və yaxud bulqarların) və bulqar a.s.k.l. (esegellərin) ölkələri arasındadır".[1]

Yazılı və arxeoloji mənbələrə istinadən belə düşünmək olar ki, Orta Volqaboyunda gəlmə bulqarlar yerli, çox saylı fin-uqor əhalisi ilə qarşılaşmışdılar. Tankeyev qəbristanlığının materiallarının göstərdiyi kimi əgər bu tayfalar iqtisadi cəhətdən bulqar tayfaları ilə eyni səviyyədə və hətta bir qədər də üstün mövqedə (oturaq əkinçilik hesabına) idilərsə, hərbi və sosial təşkilatçılıq baxımından bulqarlar aparıcı mövqeyə malik olmuşlar. B.D.Qrekov belə hesab edirdi ki, bulqar başçısı Almuşun hərbi drujinası vardı və bu, onun üstün mövqeyini təmin edirdi. [2]

VII əsrin 70-ci illərində Asparuxun bulqar ordusu Dunaya gəldi və slavyan ittifaqı "yeddi tayfasının" məskunlaşdığı vilayətlərə irəliləyərək onlar üzərinə xərac qoydu. Xan Asparux özünü dövlətin başçısı elan etdi və bulqar əyanları güclü hərbi təşkilatlanmaya istinad edərək slavyan əyanlarını sıxışdıraraq birinci üstün mövqeləri ələ aldılar. Həmin məqamadək "yeddi slavyan tayfası" kimi tanınan dövlət "Bulqariya" adlanmağa başlandı. Bir çox tədqiqatçılar hesab edirlər ki, bulqarların əsasən Miziyada (indiki Bolqarıstan ərazisində şəhər) məskunlaşması Böyük Bulqar dövlətinin başçısı Kubratın oğlu Asparuxun adı ilə bağlıdır. Belə ki, Asparux Böyük Bulqar dövləti çökdükdən sonra Azovboyundan Qara dənizin qərb sahillərinə köçdü və Bulqar dövlətinin əsasını qoydu [3]. Lakin, mənbələrdə Asparuxun Miziyada görünməsindən öncə, hələ VI əsrdə bulqarların Balkanlarda məskunlaşması göstərili.[4] Atilla imperiyasının süqutundan sonra hunlar Pannoniyada və Dunay çayı boyunca fəaliyyətə başlayırlar. Onlardan bəzilərini bulqar adlandırmaq olar.[5]

Dissertasiyanın **"Bulqarlar və Azərbaycan"** adlı II fəsli iki yarımfəsildən ibarətdir və birinci yarımfəsli **"Bulqar dövlətinin xarici**

---

[1] Заходер Б.Н. Каспийский свод сведений о Восточной Европе, Т. 2, Издательство Наука, М., 1967, с.27
[2] Греков Б.Д. Избранные труды т 1, М., Издательство АН СССР, 1957, с. 164
[3] Гумилев Л.Н. Древняя Русь и Великая степь. Изд. Мысль М. 1989. 763 с.
[4] Калинина Т.М. Сведения ранных ученых арабского халифата. Изд. Наука. М.1988, 180 с.
[5] Мингазов Ш.Р. Исторические хроники об участии тюркоязычных болгар (булгар) в карфагенском походе Велизария (533-534 гг.) // Весгник Воешюго университета. 2011, №4 (28), 125-129 с.

**siyasəti"** adlanır. Burada bulqarların qədim və orta əsrlərdə başqa dövlətlərlə mövcud olan əlaqələri araşdırılır.

Xəlifə və onun yaxınlarının əyləncələrinin qızğın vaxtında, 921-ci ilin baharında Bağdad sarayına "uzaq şimal ölkələrindən" səfir gəldi. Onu "Baqtu oğlu Abdulla" adlandırırdılar. O, "Sakaliba" (yəni slavyan şimal xalqlarının) hökmdarından xəlifəyə məktub gətirmişdi. Bu hökmdarın adı "Şilki oğlu Almuş", titulu isə "yeltivar" idi. Məktublardan biri xəlifəyə, digəri isə Nazir əl-Həramiyə ünvanlanmışdı.[1]

Xəlifənin sarayında həmin dövrdə "Tekin" və yaxud "Tegin" adlı bir türk yaşayırdı. O, xəlifənin etibarlı xidmətçisi (qulamı) idi. Bu qulamın tərcümeyi-halı çox maraqlıdır. O, Orta (Mərkəzi) Asiya türklərindən olmuşdur.[2]

Bağdad sarayında Volqaboyunda Bulqar dövlətinin varlığından və onların hökmdarının islamı qəbul etdiyindən xəbərdar idilər. İbn Rusta öz kitabında Bulqar dövləti haqqında qeyd etmişdir. Həmin dövlət slavyanlar və xəzərlər arasında yerləşir. O, hətta öz səfirini Bağdada göndərən Almuşun adını da çəkmişdir. Doğrudur, İbn Rustanın İspahanda yazılmış və geniş yayılmamış bu kitabı ilə Bağdadda tanış deyildilər. Lakin Bulqar dövləti haqqında məlumatı burada İbn Rustanın ifadə etdiyi mənbə vasitəsilə almışdılar. Xəlifənin sarayında "Saklabi" (yəni Slavyan) ləqəbli, "Baris" adlı qulam yaşayırdı. "Saklabi" adı bu halda daha geniş mənada "şimal xalqlarının nümayəndəsi" anlamını ifadə edir. Həmin "Baris" (Boris) adının Volqa çayı sahillərində slavyan şəxs adı hesab edilməsini güman etmək çətindir. "Baris"in Volqa bulqarından olduğunu güman etmək olar. Sonralar Baris o, xəlifənin səfirliyi ilə öz vətəninə qayıtmışdı.[3]

Qeyd etmək lazımdır ki, çarın səfiri xəzərin adını daşısa da, müsəlman idi. Bulqar çarı xəzər çarlığına qarşı yönəlmiş bu qədər məsuliyyətli bir missiyanı ona həvalə etmişdi.[4]

Xəzər çarlığı Xəzər dənizində əhəmiyyətli donanmaya malik olmasa da, hər halda şimaldan Volqa boyunca bura axışan qarətçi hücumların qarşısını ala bilərdi. Lakin 913-cü ildə Volqa mənsəbi və Xəzər

---

[1] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с.12-13

[2] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с.13

[3] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с.13

[4] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с.15-16

dənizi vasitəsilə bu yerlərə ruslar yürüş etdi. Ruslar bacardıqları qədər qarət etdikdən sonra Bakı ətrafındakı adalarda məskunlaşdılar. Qış fəsli yaxınlaşdığına görə əldə etdikləri var-dövlətlə birlikdə Volqa çayının mənsəbinə doğru hərəkət etdilər. Ruslarla razılaşmaya görə Xəzər xaqanlığı Volqa çayı boyunca onları yuxarı buraxmalı idi. Lakin Xəzər xaqanlığının müsəlmanları rusların üzərinə hücum etdilər, onların çoxunu qırdılar, əsirləri və qarət olunmuş malları onlardan aldılar. Rusların bu hücumu Bağdad xəlifəsinə xoş gəlməmişdi. Rusların hücumundan sonra burada əhalinin narazılıq çıxışları başlandı. Bu çıxışlar Samani sülaləsi hakimiyyətinin devrilməsi ilə nəticələndi. Həsən ibn Əli Utruş iri mülkədarlara qarşı kəndli üsyanından istifadə edərək yeni dövlət yaratdı.[1]

Beləliklə, Bulqar hökmdarının istəyinə razılıq verildi və bunun üçün ona xüsusi səfirlik göndərmək qərara alındı. Həmin səfirlik Buxaradan keçməli, gənc əmir Nəsr ibn Əhmədi yeddi il öncə taxta çıxması münasibətilə rəsmən təbrik etməli, sonra isə oğuzların sərkərdəsi Etreklə əlaqə yaratmalı, onu islamı qəbul etməyə dəvət etməli idi.[2]

Xəzər Xaqanlığının və Bulqar çarlığının coğrafi mövqeyi onların arasında ziddiyyətlər yaratmışdı. Volqa çayı və onun axarı boyunca bütün şimal yolları Bulqar tacirləri üçün açıq idi. Oradan ruslar gəlir, bulqar tacirləri şimala gedirdilər. Volqa boyunca Xəzər dənizinə uzanan yolu Xəzər Xaqanlığı kəsmişdi. Xəzər Xaqanı şimal ölkələri ilə vasitəsiz ticarət etməyə can atırdı. Lakin bu istəyə Bulqariya mane olurdu. Buna görə də Xəzər xaqanı Bulqar çarlığını özünə tabe etmək istəyirdi. Bununla yanaşı, bulqar çarı Xəzər xaqanına hərbi müqavimət göstərmək iqtidarında deyildi. Beləliklə, Bulqar çarlığı hərbi gücünü artırmaq üçün müttəfiq axtarmalı olmuşdu.

Xilafət səfirliyinin gəlişi onu yabqu və onun canişini Küzerkin ətrafında qruplaşmış oğuz kütləsi ilə qarşı-qarşıya qoydu. Küzerkin də kifayət qədər nüfuzlu bir sima idi. Onu adətən hakim rolunda görürdülər. Səfirlər onun himayəsinə istinadən elan etdilər ki, “onlar Küzerkinin dostlarıdır”. Məlumdur ki, oğuzları islama gətirməyi arzu edən səfirlik onların başçısına müraciət etməmişdi. Görünür, oğuzlar xəzərlərdən başqa, Xarəzm və Samanilər dövləti ilə mübarizə aparırdılar. Oğuzlarla müharibə ruhu X əsrdə xarəzmlilərin məişətində və ənənələrində qərarlaşmışdı. Əl-

---

[1] Литвинский Б.А. Древние кочевники «крыши мира»,М.,Наука,1972.

[2]Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с. 15

Biruninin məlumatına görə, payızda xarəzmlilər oğuzlara qarşı ənənəvi qış hərbi əməliyyatlarına başlayır və onları öz sərhədlərindən uzaqlaşdırırdı.[1]

Xəzər xaqanlığı ilə qonşu olan əsas müsəlman dövləti Xarəzm olmuşdur. Bu dövlətlər arasında dostluq münasibətləri vardı, onların ümumi düşməni oğuzlar idi. Lakin bulqarların islamı qəbul etməsi vəziyyəti tamamilə dəyişdi. Bulqar çarı Xəzər Xaqanlığında yaşayan müsəlmanlarının simasında sadiq müttəfiq əldə etdi. Xəzər müsəlmanı hətta çarın xəlifəyə göndərdiyi səfir oldu.[2]

II fəslin **"Bulqarların Azərbaycana yürüşləri və Azərbaycan xalqının təşəkkülündə iştirakı"** adlı ikinci yarımfəslində bulqar tayfalarının tarixi Albaniyaya yürüşləri (Şimali Azərbaycana) və Azərbaycan xalqının təşəkkülündə iştirakı prosesi araşdırılır.

Attilanın ölümü Bizans imperiyasını qərbdə böyük təhlükədən xilas etdi, imperiyanın şərq sərhədlərində imperatorun əl-qolunu açdı. Bu məqamadək Bizans imperatorları iki od arasında qalmamağa, hər vasitə ilə Sasani dövləti ilə münasibətləri yumşaltmağa çalışırdılar. Onlar Cənubi Qafqazda fəallaşırdılar, 456-cı ildə Lazikanı tutdular, 466-cı ildə isə saraqurları Sasanilərin üzərinə göndərdilər.[3]

V əsrin sonunda Bizansla bulqarlar arasında münasibətlər pozuldu. 499-cu ildə bulqarlar Frakiyaya daxil oldular. Aristin başçılıq etdiyi Bizans ordusu bulqarlarla döyüşdə darmadağın edildi. 502-ci ildə bulqarlar müqavimətlə qarşılaşmadan İlliriya bölgəsinə çatdılar. 514-515-ci illərdə bulqarlar Vitalianın üsyanında iştirak etdilər. Onlar bu üsyanın əsas qüvvəsini təşkil edirdilər. Belə bir məlumat var ki, Akra yaxınlığında baş vermiş həlledici döyüş zamanı hun (bulqar) cadugərləri lənətlə və cadularla zülmət yaratdılar, bununla da Bizans ordusının tam məğlubiyyətini təmin etdilər.[4] Müasirləri belə hesab edirdilər ki, hunların (bulqarların) 515-ci ildə Cənubi Qafqaza və Kiçik Asiyaya (Anadoluya) hücumları Vitalianın axtarışları ilə bağlı idi. Görünür, onlar düşünurdülər ki, hun tayfaları pərakəndə olmalarına baxmayaraq, birgə hərəkət etməyə, imperiyanın həm Dunay, həm də Qafqaz sərhədlərinə hücum etməyə qadirdir.[5]

---

[1] Толстов С.П., По следам древнехорезмийской цивилизации, М.-Л., 1948, с.245

[2] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с. 31

[3] Артамонов М.И. История Хазар, Л., 1962, с.41

[4] Артамонов М.И. История Хазар, Л., 1962, с. 79

[5] Артамонов М.И. История Хазар, Л., 1962, с. 79

VI əsrin birinci yarısında bulqarlar dəfələrlə Bizans imperiyansı üçün təhlükə yaratmışdılar. Bulqarlar iki xanın başçılığı altında Dunay çayını keçərək hərəkət etmişdilər. Frakiyaya daxil olmuş bulqar dəstələrindən birini dəf etmək mümkün oldu, lakin digər dəstə Bizans ordusunu dağıtdı. Üçüncü Bizans sərkərdəsi Qadila xəncərlə çadırı kəsib qaçmağa müvəffəq oldu. Lakin elə həmin ildə Bizansda xidmətə başlamış İlliriyanın hərbi sərkərdəsi təyin edilmiş gepid Mund bu vilayətə gələn bulqarları məğlub etdi. Əsir düşmüş bulqarları Konstantinopoldakı cıdır meydanında camaata nümayiş etdirdilər, sonra isə onları Cənubi Qafqazda döyüşən Bizans ordusunun sıralarına göndərdilər.[1]

A.P.Smirnovun fikrincə, hunların əsas kütləsi Qafqaz çöllərinin şərq bölgələrində görünənədək (eramızın ilk əsrlərində) Asiyadan özlərini "bulqar" adlandıran türk tayfaları artıq bu ərazilərə daxil olmuşdular. Onların bir hissəsi "Hun hücumunun" yolu üzərində olduğuna görə məhv edildi, digər qismi hunlar tərəfindən tabe edildi, hunların qərb yürüşünə cəlb edildi, qalan hissəsi isə dağlıq bölgələrə çəkildi və hunların dağılmasından sonra əsas ərazilərinə qayıtdı. Macar alimi Simoni belə hesab edir ki, bulqarlar ayrıca bir xalqdır və V əsrin 60-cı illərində eyni mənşəli tayfalarla (savirlərlə və onoqurlarla) birlikdə Avropaya daxil olmuşlar. Onun hesablamalarına görə, bulqar – uqorların sonuncu kütləsi Pannoniyaya çatdı, orada german tayfaları ilə qonşuluqda məskunlaşdı.[2]

Bulqarlar Azərbaycan və Dağıstanda ərazilərində də məlum idilər. Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidələrindən olan "Kitabi Dədə Qorqud" dastanının "Qazılıq Qoca oğlu Yeynək" boyunda da "bulqar" adı çəkilir.

Zaxari Ritorun VI əsrin ortalarında tərtib edilmiş "Suriya salnaməsi"ndə bulqarların Xəzər sahillərində yaşadıqları göstərilir.[3]

Güman etmək olar ki, Bulqarların Cənubi Qafqaza ilk yürüşləri, Sasani şahənşahının diqqətini Bizansdan yayındırmaq, imperatora müttəfiqlə birlikdə yenidən müharibəyə hazırlaşmaq üçün imkan vermək məqsədi güdürdü. Sonrakı hadisələr göstərdi ki, bu vəzifə yerinə yetirildi: Bizans imperatoru yeni ordu toplamış və Sasani dövlətinə yeni zərbə endirməyə hazır oldu. Bulqarların (türklərin) ordusu öncə Dərbəndə hücum etdi. Böyük ordu həmin keçiddən keçə bilməzdi, ona görə də ayrı-ayrı kiçik bulqar dəstələri dağlardan keçdilər. Onlar Dərbənd şəhərini ələ keçirdilər.

---

[1] Артамонов М.И. История Хазар, Л., 1962, с. 79
[2] Прокопий, История войн с персами, СПб., 1862, с.165-167
[3] Прокопий, История войн с персами, СПб., 1862, с.165-167

Şəhər sakinləri bu hücumdan dəhşətə gəldilər, bulqarların oxları yağış kimi yağır və əhalini qırırdı.[1] Bulqarlar Albaniyanı işğal edib viran qoyduqdan sonra İberiyaya üz tutdular, Tiflis şəhərini mühasirəyə aldılar. Bizans imperatoru da öz ordusu ilə birlikdə bura gəldi. Bundan öncə o, müttəfiqini gözləmək üçün Lazikada yerləşmişdi. Şimal (bulqarlar) və Bizans ordularının böyük olmasına, yaxşı silahlanmalarına, xüsusi divardağıdıcı vasitələrə malik olmalarına baxmayaraq, Tiflisin mühasirəsi uğursuzluqla davam edirdi. İki aylıq mühasirədən sonra türklər (bulqarlar) və bizanslılar əldən düşdülər. Qış fəsli başlandı, soyuqlar düşdü. Bizans imperatoru türk-bulqarları sərbəst buraxdı. Lakin O, bir şərt irəli sürdü: bulqarlar gələn il qayıtsınlar və Sasanilərə qarşı birgə hərbi əməliyyatlarda iştirak etsinlər. İmperator şəhərin mühasirəsindən əl çəkmək qərarına gəldi.[2]

Türklərin başçısı Bizans imperatorunun yanında 40 minlik qoşun saxlayaraq qalan qüvvələri ilə öz torpaqlarına qayıtdı. İmperator Tiflisin mühasirəsini başqa adama tapşırdı və düşmənin gözləmədiyi məqamda Sasani dövlətinin dərinliklərinə irəlilədi. O, ordusu ilə Araz çayını keçib Assuriyaya soxuldu. Yolda türk ordusu Bizans imperatorunu tərk etdi. Belə ki, türklər artıq qarşıya çıxan çətinliklərə davam gətirə bilmirdilər.[3]

Tezliklə türklər yenidən Cənubi Qafqazda göründülər. Onlar Tiflisə doğru yönəldilər. Tiflisi tutaraq böyük qənimət əldə etmiş Türk xaqanı öz ölkəsinə qayıtdı, oğluna isə ordu ilə birlikdə Albaniyanı işğal etməyi tapşırdı. Xaqan oğluna əmr etdi ki, əgər bu ölkənin hakimləri könüllü təslim olmasalar, şəhərləri təslim etməsələr, istehkamları, ticarəti, gəlirləri verməsələr, yalnız qadınları və on beş yaşına çatmamış uşaqları sağ qoysunlar və onları da qula çevirsinlər. Türk- Bizans razılaşmasına görə, gürcülərin yaşadıqları ərazilər Bizansın tabeliyinə keçməli idi. Cənubi Qafqazın şərq qismi isə xaqanın hakimiyyətin altında olmalı idi. Xaqan bu maqavilənin şərtlərinə dəqiqliklə əməl etdi.[4]

"Alban tarixi" əsərində göstərilir ki, III Ərdəşirin hakimiyyətinin ikinci ilində, yəni 629-cu ilin sonunda və yaxud 630-cu ilin əvvəlində türklər İrəvanı fəth etmək qərarına gəldilər. Türklərin xaqanı İrəvana dəstə

---

[1] Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.1, М.-Л,. 1950, с.283

[2] Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.1, М.-Л,. 1950, с.283

[3] Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.1, М.-Л,. 1950, с.283

[4] Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.1, М.-Л,. 1950, с.283

göndərdi və bir müddətdən sonra o özü də ordu ilə birlikdə onların arxasınca getdi. Sasani sərkərdəsi türklərə qarşı qoşun göndərdi. Lakin türklər adi köçəri taktikasını tətbiq edərək bu qoşunu darmadağın etdilər. Türk ordusunun yarısı düşmənin qarşısına çıxdı, qalanları isə pusquda gizləndilər. Döyüş başlandıqdan bir qədər sonra türklər qaçmağa başladılar. Pusquda duranlar qəflətən təqib edən düşmənin üzərinə hücum etdilər və onları mühasirəyə aldılar. Farslar (Sasani döyüşçüləri-red.) darmadağın edildilər.[1]

Cənubi Qafqazda döyüşmüş türk ordusunun etnik tərkibi müxtəlif idi. Burada türkütlərin sayı az idi. Həmin ordu əsasən xaqana tabe olan başqa tayfaların nümayəndələrindən ibarət olmuşdur. Döyüşçülərin arasında hörüklü olanlar və başını qırxanlar üstünlük təşkil edirdi. Türkütlərin uzun saçları vardı və onlar saçlarını çiyinlərinə tökürdülər. Bulqarlar qırxılmış başları ilə seçilirdilər.[2] Bu barədə "Bulqar xanlarının gündəliyi"ndə məlumat vardır. Gündəlikdə bildirilir ki, probulqar hakimlər "qırxılmış başlı knyazlar" adlandırılırdılar.

Bulqarların Qafqazda olmaları haqqında məlumatlar nisbətən sonrakı mənbələrdə verilir. Belə ki, Konstantin Baqryanorodnıy Kuban ətrafında yaşayan "Qara bulqarlar" haqqında bəhs etmiş və həmin məlumatını X əsrə aid etmişdi [3]. Y.A.Fyodorov və Q.S. Fyodorov Şimali Qafqaz bulqarlarının qıpçaqlarla son assimilyasiya ehtimalını inkar etməyərək belə hesab edirlər ki, hər halda XI əsrdə bulqarlar hələ qıpçaqlarla birlikdə Şimali Qafqazda yaşayırdılar, yəni onları bir-birindən fərqləndirmək mümkün idi.[4] Leontiy Mroveli XI əsrin 60-cı illərində tərtib edilmiş "Gürcü çarlarının tarixi" əsərində bu barədə məlumat vermişdi. Mroveli Leontiy qıpçaqları "bun türklər" adlanan tayfa ilə eyniləşdirmişdir. Z.V.Ançabadzenin fikrincə, "bun-türklər" adı altında bulqarları nəzərdə tutmaq lazımdır. Y.A.Fyodorov da bu fikirlə razılaşaraq mövqeyini belə əsaslandırır ki, həmin dövrdə Şimali Qafqazda başqa türklər ola bilməzdilər.[5] XI əsrə aid olan başqa gürcü mənbəsinin məlumatına görə, "qıpçaqlar qərbə getdilər, onlar köçəri türklərdən qaçırdılar və Qafqazdan sıxışdırılıb çıxarıldılar". Arxeoloji abidələr bulqarların VII-IX əsrlərdə Qafqazda olduğunu təsdiqləyir.

---

[1] История агван Моисея Каганкатваци (Пер. с древнеарм. К.Патканова). СПб, 1861, с.131-133
[2] История агван Моисея Каганкатваци (Пер. с древнеарм. К.Патканова). СПб, 1861, с.131-133
[3] Артамонов М.И. История Хазар, Л., 1962,, с.11
[4] Артамонов М.И. История Хазар, Л., 1962,, с.11
[5] Артамонов М.И. История Хазар, Л., 1962,, с.11

Bununla yanaşı, qaraçay-balkar dilində qədim bulqar dilindən qalmış müəyyən ünsürlər mövcuddur. Bu faktları nəzərə almaq zəruridir. Monqol istilasına qədərki dövrdə Şimali Qafqazda yaşayan türk etnik kütləsinin təşəkkülündə bulqarların iştirakını da dəyərləndirmək vacibdir.[1]

Aşağı Volqa boyu ərazilərində son sarmat dövrünə aid olan kurqanların tədqiqi zamanı eramızın ilk əsrlərində bölgədə olmuş köçərilərin qəbirləri aşkar edilmişdir. Həmin qəbirlər hun dövrünün erkən abidələri sırasına Orta (Mərkəzi) Asiyadan Cənub-Şərqi Avropaya qaçanların ilk göründüyü zamana aiddir. Bəzi qəbirlərin hunlara məxsusdur Dionisiy Periqet güman etmək olar. Onları II əsrin ortalarında Xəzər dənizinin şimalındakı çöllərdə məskunlaşmış köçərilər kimi qeyd etmişdir. Təsadüfi deyil ki, Aşağı Volqaboyundakı son sarmat qəbirlərində tapılmış kəllələr bəzən bir qədər monqoloid qarışığı ilə müxtəlif antropoloji tiplərə aiddir. Bəzi kəllələr Şimali Xəzər dənizinin şimal sahillərindəki orta əsr əhalisinin Şərqlə etnogenetik əlaqəsini göstərən Cənubi Sibir tipini xatırladır.[2]

Mənbələrdə bulqarlar haqqında ilk qeydlər Qafqazla bağlıdır.

Belə bir fikir mövcuddur ki, bulqarların bir hissəsi tarixi Albaniya ərazisində (Azərbaycanda) məskunlaşmış, xalqımızın təşəkkülündə müəyyən rol oynamışdır.

S.S. Əliyarov qeyd edir ki, protobulqarlar IV-V əsrlərdə kəngərlərlə yanaşı türklərin yığcam yerləşdiyi Albaniyada məskunlaşmışdılar.

Bulqarların izləri Azərbaycanın toponimlərində də özünü qoruyub saxlamışdır. Biləsuvar rayonu ərazisindən axan Bulqarçay da bu tayfaların adı ilə bağlıdır. Keçmişdə Biləsuvar rayonu ərazisində Bolqar, Bolqarkənd, Bolqar-Göytəpə etnonimləri də olmuşdur.

Mənbə məlumatlarına görə, erkən orta əsrlərdə bulqarlar bir çox tayfalardan təşkil olunmuşdu: Kuvyar, Çakar, Kuriqir, Oxsun, Kul, Kazan, İskil və s. Bu etnonimlərin hamısı Azərbaycan toponimiyasında öz əksini tapmışdır. Kul tayfası ilə bağlı olaraq Qullar adında dörd toponim vardır (Ağdam, Balakən, Bərdə və Qusar rayonlarında). XX əsrin əvvəllərində kul tayfaları Qarabağda qeyd olunur. "Xubyarlı" oykonimi (İmişli, Cəbrayıl) müəyyən fonetik dəyişikliklə bulqarların "kuvyar" etnonimini əks etdirir.

Şimali Azərbaycan toponimiyasında öz izini qoymuş bulqar tayfalarından biri də "Kazan"dır. Qafqazda bu adı yaşadan xeyli toponim

---

[1] Артамонов М.И. История Хазар, Л., 1962,, с.11

[2] Федоров Я.А. Федоров Г.С., Ранние тюрки на Северном Кавказе, М., МГУ, 1978, с.48

olmuşdur. Azərbaycanda "Kazançı" ("Qazançı") adı ilə kəndlər vardı. Azərbaycanın Qusar, Balakən, Bərdə, Ağdam bölgələrində onlarla "Qazançı" toponimi (kəndləri), "Qazanbulaq", "Qazangöl" hidronimi; İmişli, Göyçay, Cəbrayıl bölgələrində, habelə Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunda "Çaxırlı"; müxtəlif ərazilərdə "Qullar", "Əzgilli" toponimləri bu tayfanın izlərini yaşatmışdır.

Cənubi Azərbaycan ərazisində esqel (eskel, isqil) və kazan bulqar etnonimlərini əks etdirən toponimlər də vardır.

Dissertasiyanın **"Bulqarların sosial-iqtisadi və mədəni həyatı"** adlı III fəsli 3 yarımfəslə ayrılır. Birini yarımfəsil "**Hərb sənəti"** adlanır və burada mövcud mənbələr əsasında bulqarların hərb sistemi araşdırılır.

Səlnamələrdə verilən təsvirlərdən məlum olur ki, bulqarların əsas ordusu ağır süvarilər idi, piyadalar yardımçı xarakter daşıyırdı. At dəstəsi irəli çıxırdı, düşməni ox atəşinə tuturdular və bu yolla düşmənin hərbi düzülüşünü pozmağa çalışırdılar.

Bulqarlar qoruyucu silah kimi dəbilqədən istifadə edirdilər. Kazan muzeyinin və Moskvadakı Dövlət Tarix Muzeyinin kolleksiyalarında dəbilqələrin yalnız qırıntıları vardır. Belə düşünmək olar ki, bulqarlar arasında lövhəşəkilli dəbilqələr geniş yayılmışdı.

III fəslin ikinci yarımfəsli "**Təsərrüfat həyatı və ticarət"** adlanır. Adından da göründüyü kimi, həmin yarımfəsildə bulqar tayfalarının məşğul olduğu təsərrüfat və sənətkarlıq sahələrindən, həmçinin ticarət əlaqələrindən bəhs edilir.

Bulqarların tarixi üzrə mənbə məlumatları çox azdır. Bu məlumatlar onların siyasi və mədəni həyatını öyrənməyə imkan vermir. Həmin vəziyyət tədqiqatçıları arxeoloji materiallara müraciət etməyə vadar edir. Arxeoloji materiallar bizə bulqarların təsərrüfat həyatını və ticarət əlaqəllərini hərtərəfli işıqlandırmaq imkanı verir.

Bulqarlarda ticarətin geniş yayıldığına əmin olmaq üçün rus səlnamələrinin və ərəb səyyahlarının məlumatlarına nəzər yetirmək kifayətdir. Həmin məlumatlar Bulqariyanın ən məşhur məskənlərində sənətkarlığın xeyli inkişaf etdiyini düşünməyə imkan verir. Bulqar, Bilər, Suvar, Jukotin, Brahimov, Osel şəhərləri sənətkarlıq emalatxanaları ilə tanınmış mərkəzlər idi.[1]

İbn Rusta bulqarların əkinçilik fəaliyyəti haqqında daha konkret məlumat vermişdir: "Onlar əkinçi xalqdır və hər cür taxıl yetişdirirlər: arpa,

---

[1] Гаркави А.Я. Сказания мусульманских писателей о славянах и русских, СПб., 1870, с.218

buğda və s". Müəllif bulqarların bilavasitə qonşusu olan burtasların təsərrüfatı ilə bağlı qeydi həmin fikrini aydınlaşdırır. Burtasların iqtisadi inkişaf baxımından bulqarlardan geri qaldıqları şübhəsizdir. İbn Rusta qeyd etmişdir ki, "onların dəvələri, buynuzlu mal-qarası və balı var. Onların başlıca sərvətləri dələ xəzidir. Onlar əkinçiliklə məşğuldurlar, lakin sərvətləri bal və xəzdir.[1]

Bulqarlarda çay donanmasının olmasına, onların Volqa çayı və onun qolları vasitəsilə şimala "Visu xalqına", Volqa və Oka çayları vasitəsilə rus knyazlıqlarının torpaqlarına getmələrinə baxmayaraq, mənbə məlumatlarından belə təsəvvür yaranır ki, Volqa çayı vasitəsilə ticarət də daha fəal rol ruslara, xəzərlərlərə və islam-Şərq dövlətlərinə məxsus olmuşdur. İslam dövlətlərinin ixtiyarında karvan ticarəti də vardı. İbn Fədlan aydın şəkildə bildirmişdir: "Xəzərlərin ölkəsindən slavyanların ölkəsinə gəmi gələndə çar atla gedir, gəmidə olan malları sayır, bütün malın onda bir hissəsini götürürdü. Ruslar və ya başqa tayfalar qullarla birlikdə gələndə çar hər on baş quldan birini özü üçün götürürdü. Ruslar öz ölkəsindən gəlirlər və Atil (Volqa) çayı sahilində gəmilərini saxlayırlar. Bu isə böyük bir çaydır".[2]

Əl-Məsudu Bulqariyadan Şərqə yollanan karvanlar haqqında məlumat vermişdir: "Karvanlar Şərqdən Xəzər xaqanlığına və Bulqarlar ölkəsinə gedirdi". İbn Fədlan Bulqar dövlətinə dəvə və at üstündə səyahət etmişdi.[3]

"Visu xalqı" ilə ticarət məhsul mübadiləsi yolu ilə aparılırdı. Visu torpaqlarından Bulqariyaya müxtəlif xəz məmulatı gətirilirdi. Yaqut əl-Həməvi qeyd edirdi ki, tacirlər bu malları almaq üçün "Visu ölkəsinə" adətən İtil çayı vasitəsilə gedirdilər.[4] Əl-Qəzvini (XIII əsr) göstərirdi: "Bulqarlar visuların torpağına üç aylıq yoldan sonra çatırdılar. Orada gecə bir saatdan çox olmur, bəzən daha uzun sürürdü. Hər biri öz mallarını xüsusi işarə ilə qoyur və gedir. Sonra gəlir, ölkəsi üçün lazım olan malı tapır. Əgər o, bu malı bəyənirsə, onda onu dəyişir və öz malını onun yerinə

---

[1] Гаркави А.Я. Сказания мусульманских писателей о славянах и русских, СПб., 1870, с.54

[2] Греков Б.Д., Калинин Н.Ф. Булгарское государство в домонгольское завоевание, с.97-185. Материалы по истории Татарии, 1, ТАТГОСИЗДАТ, 1948, с.130

[3] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956

[4] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956

verir. Əgər bəyənmirsə, onda öz malını geri götürür. Alıcı və satıcı bir-birini görmür”. XIV əsrin 20-ci illərində Bulqar şəhərində olmuş İbn Bəttutə bu ticarəti təqribən eyni şəkildə təsvir etmişdir.[1]

III fəslin **“Bulqarların məişəti, dini görüşləri və mədəni inkişafı”** adlı üçüncü yarımfəsli həmin tayfaların dünya görüşü, etiqadları, yaşayış tərzi və s. öyrənilməsinə həsr olunmuşdur.

922-ci ildə Bulqar dövlətinə səfər etmiş İbn Fədlan burada təşəkkül tapmış əkinçiliklə, torpaq üzərində xüsusi mülkiyyətlə və fərdi kənd təsərrüfatı ilə qarşılaşmışdı. IX əsrin yazılı mənbələrindən istifadə etmiş İbn Rusta İbn Fədlanın qeydlərini təsdiq edir. İbn Fadlan qeyd etmişdir ki, bulqarların yeməyi at əti və darıdır, lakin onlarda buğda və taxıl da çoxdur. Başqa bir yerdə isə o, bunlara əlavə olaraq bildirir ki, “onlar arpa un içkisi hazırlayırlar, onu kiçik qurtumlarla qızlar və qulamlar içir. Bəzən arpanı ətlə qaynadırlar.Bundan əlavə, qulamlar ət yeyir, əti qızlara da yedirdirlər.[2]

930-950-ci illərin müəllifi Əl-Bəlxi yazmışdır: “Bulqarların evləri ağacdandır və qış yaşayış yerləri kimi xidmət edir. Yayda isə onlar keçə yurdlarına yayılırlar”.[3]

Maldarlıq məhsulları əhalinin qidalanmasında əhəmiyyətli rola malikdir. İbn Fədlan bulqarların qidası haqqında bəhs edərkən tez-tez əti qeyd etmişdir. İbn Rusta göstərirdi: “Bulqarlar öz çarlarına vergiləri mal-qara ilə və başqa mallarla verirlər, onların qonşuları burtasların isə dəvələri və buynuzlu mal-qarası var.[4]

İbn Fədlan “Bulqariya qadınlarının tam sərbəstliyindən” bəhs etmişdir. O, təəccüblə bildirirdi ki, kişilər və qadınlar çaya düşür, birlikdə çimir və qapanmırlar. Çarın arvadı təntənəli mərasimlərdə çarın yanında əyləşirdi. İbn Fədlan bununla bağlı olaraq xüsusilə qeyd etmişdir ki, onlarda adət və qayda belədir. Qadınların və kişilərin hüquqları bərabər idi. İbn Fədlan məlumat vermişdir ki, dəfn zamanı kişilər ölülərin üstündə ağlayır, lakin qadınlar ağlamırlar. Ailədə ata və ər hakim idi. İbn Fədlan bu barədə bildirirdi ki, qadın ərinin ölümündən iki il sonra ərə gedə bilərdi.[5]

---

[1] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956

[2] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, с.114

[3] Казаков Е.П. Памятники болгарского времени в восточных районах Татарии, М., Наука, 1978, с.45

[4] Генинг В.Ф., Халиков А.Х. Ранние болгары на Волге, М., 1964, с.118

[5] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956, 121

Bulqarlarda dəfn adətləri ilə bağlı olan məlumatlar bir qədər çoxdur. İbn Rusta qeyd etmişdir ki, bulqarların qəbristanlıqları müsəlmanların qəbristanlıqları kimidir. İbn Fədlan Bulqariyada müsəlman dəfn olunarkən islam adətlərini təsvir etmişdir (ölünün yuyulması, cəsədin arabada aparılması və s.).[1] Etnoqrafik araşdırmalar bulqarların bütpərəst olduğundan xəbər verir.

Dissertasiyanın **"Nəticə"** hissəsində dissertasiya işinin məqsəd və vəzifələrindən irəli gələn ümumiləşdirmələr aparılıb, tədqiqat prosesində əldə olunan nəticələr verilib, yeni elmi fikir və təkliflər öz əksini tapıbdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1.Bulqarların etnik tərkibi və mənşəyi haqqında məsələyə dair // Gəncə Dövlət Universiteti Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası, №1. Gəncə, 2014, s.177-181
2. Böyük Bulqar dövləti // Bakı Dövlət Universiteti. Tarix və onun problemləri, №1. Nəzəri, elmi, metodik jurnal, Bakı, 2014, s. 65-70
3.Handıcrafts of bulqars // International Scientific Journal, Theoretical & applied science, France-2015 №08(28), p.70-72
4. Bulqarlarda hərbi sənət // Bakı Dövlət Universiteti. Tarix və onun problemləri, №2. Nəzəri, elmi, metodik jurnal, Bakı, 2015, s.5-9
5. Bulqarlar və Azərbaycan // Bakı Slavyan Universiteti. Ulu Öndərin anadan olmasına həsr olunmuş "Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər", Beynəlxalq Elmi Konfransın materialları. 3-5 may 2016-cı il, II hissə, s.105-106
6. Социально-культурная жизнь булгаров // // Науковий вiсник збiрник наукових праць Випуск 103 (№ 12). Украина, Киiв, 2015, ст. 109-111
7. Bulqarların Cənubi Qafqaza yürüşü // Gəncə Dövlət Universiteti. Qafqaz tarixinin aktual problemləri. Beynəlxalq elmi konfuransın materialları, Gəncə, 15-16 oktyabr 2015, II cild, s. 173-176
8. Bulqarlarda təsərüfat həyatı // Azərbaycan Dövlət Pedaqoji Universiteti. Pedaqoji universitet xəbərləri, №3, Bakı 2015, s. 171-174

[1] Ковалевский А.П. Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг., Харьков, 1956,
с.122

9. Bulqar dövlətinin xarici siyasəti // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası, №3, Gəncə 2016, s. 222-230

**S.A.Qasimova**

## BULGARS AND AZERBAIJAN

## SUMMARY

This dissertation is depicted to the relation between Azerbaijan and Bulqar tribes, also about the role of these tribes in formation of Azerbaijan nation.

Dissertation consists of introduction, three chapters, result, source and list of literature.

**In introduction part** of dissertation is grounded the actuality of research works, is given the chronological frame, is defined the aim and duties, is given the short survey of research level and source base.

**The first chapter** of dissertation under the title "The Ancient history of Bulqar tribes" is depicted to the composition of bulqars, to their origin, to study the history of Bulqar state creation, also about the stated opinions and analyses of considerations and comparisons. The stated opinions according to this task is grounded by written sources and archeological facts.

**The second chapter** of dissertation is called "Bulqars and Azerbaijan" and here is investigated the relation between bulqars and Azerbaijan. Here is given the information about the history of bulqar tribes, their raids to Albania (North Azerbaijan), in general to South Caucasus. Bulqars most of all came to these territories in the union of other Turkish tribes. We can get definite information about the coming of Bulqar tribes to Albania from written sources and archeological materials. The study of relation between Bulqar State with other states also takes place in this chapter.

**The third chapter** of dissertation under the title "The Socio-economical and cultural life of Bulqars" covers the socio-cultural life of bulqars. In this chapter is told about the investigation works of military art of Bulqars, their economic life, handicraft world outlook and etc.

**In the result part** of dissertation is reflected the main theses of investigation in general form.

**С.А.Гасимова**

## БУЛГАРЫ И АЗЕРБАЙДЖАН

## РЕЗЮМЕ

Диссертация посвящена отношениям булгарских племен с Азербайджаном, в том числе о влиянии племен на азербайджанский народ. Диссертация состоит из введения, трех глав, заключения, источника и списка использованной литературы.

**Во введении** диссертации приводятся обоснования актуальности исследований, проводится хронологическая последовательность, уточняется цель, уровень исследований, а также приводится краткое описание исходной базы данных. Кроме этого затрагивается методологическая основа исследований, научные новшества и практическое значение диссертации.

**В первой главе** диссертации под названием «Древняя история булгарских племен» рассматриваются вопросы происхождения, этнического состава племен, истории создания Булгарского государства, а также обсуждаются высказанные мысли, анализ и сравнения. В связи с этим выдвигаются идеи, основываются на письменные источники и археологические факты.

**Во второй главе** диссертации под названием «Булгары и Азербайджан» изучается тема отношений булгар с Азербайджаном. Приведены данные о набегах булгар в Албанию (северный азербайджан) и на южный Кавказ в целом. Булгары участвовали в набегах в составе союзных тюркских племен. Информацию о нашествии булгар в Албанию можно взять из письменных источников, а также основываясь на археологических исследованиях. Также в этой главе отводится важное место отношениям Булгарской державы с другими государствами.

**Третья глава** диссертации посвящена вопросам «Социально – экономическая и культурная жизнь Булгар». В этой главе рассматриваются военное искусство, хозяйственная жизнь, ремесла, мировоззрение булгар.

**В заключении** диссертационного исследования основные положения отражаются в обобщенном виде.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
Turxan NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А. БАКИХАНОВА**

***На правах рукописи***

**САМИРА АЛИАГА кызы ГАСИМОВА**

# БУЛГАРЫ И АЗЕРБАЙДЖАН

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2017**